# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

Bakı şəhəri № 234/1 5 oktyabr 2012-ci il

Auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması barədə

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda Auditorlar Palatasına "Beynəlxalq təcrübə nəzərə alınmaqla Auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması haqqında tapşırığını rəhbər tutaraq, ölkədə auditin beynəlxalq standartlara və qabaqcıl təcrübəyə əsaslanaraq daha da geniş və sürətlə inkişaf etdirilməsinə nail olmaq məqsədilə, habelə Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının (2011-2015-ci illər) reallaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi" barədə 1.1-ci və 27-ci müvafiq bəndlərin icrası ilə əlaqədar əlavə vaxtın verilməsi haqda sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədovun xidməti məktubunu nəzərə alaraq, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda Auditorlar Palatasına "Beynəlxalq təcrübə nəzərə alınmaqla Auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması haqqında tapşırığına əsasən Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının (2011-2015-ci illər) reallaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi" barədə 1.1-ci və 27-ci müvafiq bəndlərində Konsepsiyanın adının dəqiqləşdirilməsi və əhatə dövrünün üzadılması məqsədəmüvafiq hesab edilsin.
2. "Beynəlxalq təcrübə nəzərə alınmaqla Auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması 2013-cü ilin iş planına daxil edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**